Azərbaycan Dövlət Mahnı Teatrında təşkil olunmuş tədbirdə müsabiqə qalibləri rəngarəng konsert proqramı ilə çıxış ediblər.

Müsabiqənin keçirilməsində əsas məqsəd ilk-peşə və orta ixtisas təhsili müəssisələrinin şagird və tələbələrinin asudə vaxtlarının səmərəli keçirməsini təşkil etmək, xüsusi istedada malik gəncləri üzə çıxarmaq, onların ifa mədəniyyətinin inkişafına təkan vermək, Azərbaycan bəstəkarlarının əsərləri, xalq mahnıları və milli rəqslərin öyrənilməsi istiqamətində aparılan işləri daha da inkişaf etdirmək, gənc nəslin milli-mənəvi, estetik tərbiyəsini yüksəltməkdən ibarətdir.

Xatırladaq ki, müsabiqənin nəticələrinə əsasən, 21 nəfər I, 13 nəfər II, 10 nəfər III yeri tutub, 8 nəfər isə müsabiqənin fəal iştirakçısı adına layiq görülüb.